# ZƏFƏRƏ APARAN YOL... VƏ BÖYÜK QƏLƏBƏ

*(Əvvəli ötən sayımızda)*

* * *

Bu sevinci yaşadığımız anlarda bizi qələbəyə aparan yolları göz önünə gətirirəm. Vətən müharibəsinə başladığımız ilk vaxtlardan qısa, lakin fədakarlıq, əzmkarlıqla ötüb-keçdiyimiz yolda əsgərlərimiz öz rəşadətli döyüşləri ilə hərb tariximizin bir şərəfli səhifəsini yazdılar. Müharibənin ilk günündən əsgərlərimizin böyük ruh yüksəkliyi ilə cəbhədə qanları, canları bahasına qazandıqları uğurlar, 30 ilə yaxın bir vaxtda itirdiyimiz ümidlərin qayıtması hamını bir nəfər kimi ayağa qaldırdı. Dövlət-ordu-xalq birliyinin yaranması bizi bir amal ətrafında birləşdirdi. İstək, qərar bir oldu: düşmən tapdağı altında inləyən torpaqlarımızı işğaldan azad edəcəyik! Etdik də!

Müzəffər ordumuz elə ilk günlərdən öz gücünü düşmənə göstərdi. İşğaldan azad olunmuş kəndlərimizin, şəhər və rayonlarımızın televiziyada nümayişinin əks-sədası hər kəsdə böyük ruh yüksəkliyi yaratdı. Xalqımız erməni vandallarının qədim abidələrimizi, məscidlərimizi, hətta məzarlıqlarımızı belə, dağıtdıqlarının acısını yaşadısa da, əsgərlərimiz faşist xislətli erməni qəsbkarlarının, vandalllarının cəzasını döyüş meydanında verdilər. Şəhidlərimizin qanı yerdə qalmadı.

Bir daha xatırlayaq. Müharibənin davam etdiyi bu 44 gün ərzində cəngavər əsgərlərimiz ard-arda işğalda olan kəndlərimizi, şəhər, rayon və qəsəbələrimizi erməni tapdağından təmizlədi, düşməni geri oturtdu, onların hərbi istehkamlarını darmadağın etdi. Bu müharibə dünyanın diqqətində idi. Ermənistan rəhbərliyi Azərbaycan Prezidentinin dəfələrlə tələb etdiyi siyasi müstəviyə, sülhə gəlmədi, öhdəliklər qəbul etmədi. Ali Baş Komandan nə deyirdi? Prezident İlham Əliyev müharibənin ilk günündən Ermənistan dövlətinə, erməni xalqına, analarına, onların timsalında dünyaya bəyan edirdi ki, bu münaqişənin hərbi yolu var, lakin biz məsələni sülh yolu ilə nizama salmaq istəyirik. Bizim torpaqlarda oğullarınızı qırdırmayın... Lakin faşist xislətli düşmən bu humanist yanaşmanı saya salmadı.

Nəticə isə göz qabağındadır. Topladığımız gücün, birliyin müqabilində bu qələbə labüd idi. Həmrəyliyimiz, milli birliyimiz qələbəmizi reallaşdırdı. Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu.

Cənab Prezidentin həm xalqa müraciətində qeyd etdiyi bir çox məsələlər, həm də xarici ölkələrin mətbuatına verdiyi açıqlamalar dəqiq faktlara, tarixi sənədlərə, gerçək hadisələrə söykəndiyindən, eləcə də hazırkı vəziyyəti siyasi, diplomatik səviyyədə analiz etdiyindən, düşünürük ki, gələcəkdə tariximizin bu səhifəsini öyrənən, tədqiq edənlər hökmən bu çıxışların mətnindən istinad-mənbələr kimi geniş istifadə edəcəklər. Bu müraciətlər, müsahibələr yeni tariximizin yazılmasında və tarixçilərimiz tərəfindən ən ciddi, siyasi sənəd olaraq təhlil-təqdir olunmaqla misilsiz əhəmiyyət kəsb edəcəkdir.

Burda hadisələrin arxada qalmış bir mənzərəsinə də diqqət çəkməyi zəruri hesab edirik. Ermənistan rəhbərliyi həmsədrlər tərəfindən üç dəfə yaradılan humanitar atəşkəsdən humanistcəsinə yararlanmadı. Düşünmək olardı ki, hər iki tərəf son dərəcə ümdə olan bu hisslərin ifadəsi olan sənədə həssaslıqla yanaşacaq, gözləmə mövqeyində təmkin nümayiş etdirəcək. Azərbaycan tərəfi bütün dünyanın gözü qarşısında bu sənəddən irəli gələn müddəalara ehtiram göstərdi. Beynəlxalq hüquq və prinsiplərə riayət etdi. Ermənistan ordusu isə, müharibə zonasından uzaq olan şəhər və rayonlarımızı qadağan olunmuş raketlərdən, kasetli bombalardan atəşə tutdu. Yeri gəlmişkən, humanitar sözününün etimoloji mənşəyinin humanizmi, qayğını, xeyirxahlığı, nəciblik və nəzakət kimi hiss və davranışı ifadə etməsi hamıya bəllidir. Bu hisslər dövri-qədimdən Azərbaycan xalqının həyat-yaşam tərzində özünü bütün aydınlığı ilə büruzə vermişdir. Bütün bunların mahiyyətində xalqımızın sülhə, əmin-amanlığa, ədalətə söykənən milli mənsubiyyəti dayanır. Bəs bu ümdə, insani hissə, duyğuya ermənin baxışı necədir? Faşist xislətli ermənilərin son iki əsrdə azərbaycanlılara qarşı törətdikləri soyqırım faciəsi, kəndlərimizi, şəhərlərimizi yandırması, soydaşlarımızı qaçqınlıq, didərginlik taleyi yaşamağa məhkum etməsi, açıq-aşkar göstərir ki, humanitar sözü, humanizm onlara yaddır. Bu vandallar dünyaya sanki qəsb etmək, dağıtmaq, öldürmək, baş kəsmək üçün gəliblər.

Bəs, Ermənistan üçün bu atəşkəs qərarı hansı mənanı ifadə etdi? Və onlar bu "dur"un qarşısında necə davam gətirdilər? Həmin qərarın təsdiqindən heç 2 saat ötməmiş Ermənistan ordusu bizim ikinci böyük şəhərimiz olan Gəncəni "Toçka-U" raketləri ilə atəşə tutdu. Bəli, işğalçı dövlət belə bir qərardan sonra bir daha özünün iyrənc simasını göstərdi, hərb meydanında döyüşə bilmədiyindən terror əməliyyatlarına keçdi. Bu arada özünün dağıdıcılıq əməllərini ortaya qoydu. Bu hadisələr onu göstərdi ki, bünövrədən əyri olan ağacın qaməti heç vaxt düz, şax olmur... Erməni əzəldən xain və xəyanətkardır. Əslində "yazıq, əzabkeş" şinelinə girmiş işğalçını hərbi əsirlər və digər saxlanılan şəxslərin qaytarılması, meyitlərinin yığılması deyil, bu məqamdan alçaqcasına istifadə edərək, Azərbaycanın ərazilərini atəşə tutaraq itkilər, dağıntılar yaratmaqdır. Budur, erməni vandalizmi! Budur, köçəri həyat tərzindən sürünə-sürünə keçib, ürəyiyumşaqlığımızdan istifadə edərək Azərbaycan torpağında dövlət quran hayların murdar xisləti! Düşmənin dağıdıcı əməlləri, işğalçılıq məqsədləri xalqımızı hiddətləndirdi, qəzəbimiz tüğyan etdi. Və nəticədə dərslərini verdik. Və biz savaşın ilk günündən "Qarabağ Azərbaycandır" həqiqətini ucadan və qətiyyətlə səsləndirdik, bu realllığı döyüş meydanında qəhrəmanlığımızla, üstünlüyümüzlə işğalçılara göstərdik. Dedik ki, bəd əməllərinə son qoysunlar. Və bilsinlər ki, Azərbaycan torpağında özbaşınalıq etmək olmaz. Azərbaycan bu hərəkətləri düşmənə bağışlamaz...

* * *

Şuşanın işğaldan azad olunması – Qələbə xəbəri dünyaya yayıldı. Dost sevindi, düşmən xar oldu. Ermənistana hərbi, həm də siyasi dəstək verən havadarlar Azərbaycan ordusunun haqq savaşındakı zəfərlərindən qısqanclıq hissi keçirdi. Şərin qalib gəlməsinə çalışanlar, yalanları, iftiraları ilə dəridən-qabıqdan çıxan ermənipərəstlər doğrunun qarşısında özlərini itirdilər. Doğruya zaval olmadı. Dünya Azərbaycan ordusunun yenilməzliyini, gücünü gördü. Bu qələbə, bu zəfər xalqımızın Ali Baş Komandanın ətrafında "dəmir yumruq" kimi birləşdiyini göstərdi. Bu, ordumuzun bir mərkəzdən ağılla, siyasi uzaqgörənliklə idarə olunduğunu dünyaya nümayiş etdirdi. Prezidentin Azərbaycan xalqına verdiyi qələbə müjdəsinin doğurduğu hüdudsuz sevinc hissi, müraciətinin hər cümləsi bizi qürurlandırdı, tam və böyük Qələbənin dadını hiss etdik. Biz işğalda olan torpaqlarımızı qanımız bahasına aldıq.

Bu Qələbənin siyasi, mənəvi, bəşəri mənası o qədər böyük və misilsizdir ki, bunu geniş mənada sözə gətirmək ayrıca bir yazının mövzusudur. Biz bu sahədə nə etməyə borcluduqsa, nəyə qadir idiksə, onu da etdik. Əsas odur ki, Azərbaycanın qüdrətini, haqqını görməzlikdən gələnlər suya döndülər. Dünya Azərbaycanın bir dövlət olaraq gücünün bir daha fərqində oldu. Azərbaycan Prezidentinin siyasi, diplomatik hazırlığını, bacarıqlı dövlət rəhbəri, Müzəffər Ali Baş Komandan, yenilməz Sərkərdə olduğuna bir daha əmin oldu. Xalqımızın vətənpərvərliyini, milli birliyini gördü. Ordumuzun rəşadətinə, əsgərlərimizin igidliyinə şahidlik etdi. Bu Qələbə nəinki Azərbaycanın siyasi dairələrində, eləcə də dünya cəmiyyətinin siyasi baxışlarında tez-tez müzakirə müstəvisinə gətiriləcək. Azərbaycanın bir çox sahələrdə olduğu kimi, haqq savaşındakı hərbi və siyasi təcrübəsi də öyrəniləcək...

* * *

2020-ci il Qələbə ili oldu. Bu sətirləri böyük fəxarət hissilə yazdığım dəqiqələrdə bir daha əmin oluram ki, Azərbaycan xalqının İlham Əliyev kimi Ali Baş Komandanı, böyük və qüdrətli Sərkərdəsi, xalqının iradəsini ifadə edən güclü siyasi-ictimai xadimi var. Və təbii ki, biz bu Qələbəyə milli birliyimiz, həmrəyliyimiz və güclü ordumuzla nail olduq. Bundan sonra Azərbaycanın iqtisadi, siyasi və mənəvi gücü artacaq. Beynəlxalq səviyyədə yeni-yeni uğurlarımız olacaq.

* * *

Həmişə diqqət etmişəm ki, Prezidentimiz özünün bədahətən, sinədən etdiyi bütün çıxışlarında insana bir addımda gerçəkləşən ümid bəxş edir. Arzuların coşdurur, həyata, yaşamağa, sevgisini alovlandırır. Nə deyir, mükəmməl deyir, nə vəd edir, yerinə yetirir. Və xalqına bu xidmətindən qəlbi rahatlıq tapır. Bu mənada dövlət başçımızın həm də Ali Baş Komandan kimi noyabrın 8-də Şuşanın işğaldan azad olunması münasibətilə Şəhidlər xiyabanından xalqa etdiyi müraciəti bütünlükdə Qarabağımızın tacı, mədəniyyət mərkəzi, musiqimizin beşiyi, xarı bülbülün vətəni Şuşanın hüsnünə, şərəfinə köklənmişdi. Bu müraciəti eşidəndə də, onun mətnini oxuyanda da qəribə hisslər yaşadım. 28 il 6 ay ürəklərində Şuşanın nisgili ilə yaşayan xalqımızın halını duydum, göz yaşlarını gördüm. Prezident bu qədim Aristokratlar şəhərini işğaldan azad etməklə hər birimizi bəxtiyarlığa qovuşdurdu. Müraciətinin sonunda Şuşaya canlı bir Varlıq kimi səsləndi:

Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik!
Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

Ali Baş Komandanın Qələbə müjdəsilə xalqa müraciətində də böyük həyəcan, coşqu və sonsuz fərəhlə dediyi sözlərdən duyğulanmamaq olmur. Həmin gecə cənab Prezident təkcə Azərbaycan xalqına deyil, dünya azərbaycanlılarına yetərincə qürurverici, yeni bir həyat bəxş etdi. O gecə bütün Azərbaycan ailəsi nurlu sabahlarını sadəcə xəyallarında canlandırmaqdan belə, fəxarət hissi yaşadı. Budur o fikirlər:

"Qarabağ Azərbaycandır və nida" ifadəsi artıq bizim qələbəmizin rəmzi idi, rəmzinə çevrildi. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!

* * *

Son vaxtlar Prezidentin çıxışlarını dinlədiyim anlarda düşündürdüm ki, İlham Əliyevin bu həyatda humanist, xeyirxah hami, sözündə və əməlində səbatlı, qətiyyətli bir İnsan, dövlət başçısı kimi, xalqını xoşbəxt görməkdən savayı böyük arzusu yoxdur. Bir yazıçı-publisist kimi, onu da müşahidə edirəm ki, Azərbaycan xalqının ümman genişliyində olan qəlbində Prezidentinə sonsuz ehtiramı, sevgisi var. Taleyüklü məsələlərdə hər bir vətəndaş, xüsusən də dövlət başçısı öz əqidəsi, xalqına xidmətilə bütün prizmalardan aydın görünür və tanınır. Bu Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan, qüdrətli Sərkərdə, Azərbaycan ailəsinin başçısı İlham Əliyev olduğu kimi: Xalqına sədaqəti, doğmalığı, ordusuna, əsgərinə diqqəti, şəhidinin xatirəsinə ehtiramı, yaralısına qayğısı, dəstəyi ilə gerçəkliyin aynasında Qəhrəman Vətən oğlu kimi göründü.

Cənab Prezident, son 17 ildə xalq bir daha əmin oldu ki, Sizin siyasi qətiyyətinizə, müdrikliyinizə, cəsarətinizə, fəhminizə etibar etməkdə yanılmayıb. Böyük Qələbəylə başa çatan Vətən savaşının qəhrəmanı Müzəffər Ali Baş Komandan, torpaqlarımızın azadlığı uğrunda şəhid gedən oğullarımız, yenilməz ordumuz və vətən eşqi, bayraq sevdasıyla döyüşən əsgərlərimizdir!



*Şəfəq NASİR,*
*yazıçı-publisist*